İPƏK YOLU, No.2, 2025, səh.87-94
https://doi.org/10.30546/SI.2025.2.5.237

# ROBERT BÖRNSÜN POEZİYASINDA SENTİMENTALİZMİN BƏDİİ-ESTETİK TƏZAHÜRLƏRİ

**İsmət Cəfərova**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: ismetceferova6@gmail.com

**Xülasə.** Məqalədə XVIII əsrdə İngiltərədə yaranan sentimentalizm cərəyanının ideya-estetik əsaslarını və bu cərəyanın Robert Börnsün poeziyasında təzahür formalarını araşdırılmışdır.

**Açar sözlər:** İngilis ədəbiyyatı, sentimentalizm, maarifçilik, poeziya, Şotland ədəbiyyatı.

**ARTISTIC-AESTHETIC MANIFESTATIONS OF SENTIMENTALISM IN THE POETRY OF ROBERT BURNS**

**Ismat Jafarova**
*Nakhchivan State University, Nakhchivan, Azerbaijan*

**Abstract.** The article examines the ideological and aesthetic foundations of the sentimentalism movement that emerged in England in the 18th century and the forms of manifestation of this movement in the poetry of Robert Burns.
**Keywords:** English literature, sentimentalism, enlightenment, poetry, Scottish literature.

**ХУДОЖЕСТВЕННО - ЭСТЕТИЧЕСКИЕ ПРОЯВЛЕНИЯ СЕНТИМЕНТАЛИЗМА В ПОЭЗИИ РОБЕРТА БЁРНСА**

**Исмат Джафарова**
*Нахичеванский Государственный Университет, Нахичевань, Азербайджан*

**Резюме.** В статье рассматриваются идейно-эстетические основы течения сентиментализма, возникшего в Англии в XVIII веке, и формы проявления этого течения в поэзии Роберта Бернса.
**Ключевые слова:** Английская литература, сентиментализм, просвещение, поэзия, Шотландская литература.

## 1. Giriş

XVIII əsrin ortalarında İngiltərədə formalaşan və Avropa ədəbiyyatında da müəyyən paralelləri olan sentimentalizm insan hisslərinə üstünlük verən estetik cərəyan olduğundan xüsusilə yeni formalaşmaqda olan orta sinfin dünyagörüşü ilə səciyyələnmiş və empatiya, mərhəmət kimi duyğular həmin sosial təbəqə üçün arzuolunan əxlaqi keyfiyyətlər kimi təqdim olunmuşdur. Sentimentalizmin yüksəlişi, maarifçilik dövrünün rasional və optimist dünyagörüşünün zəifləməsinin göstəricisi kimi dəyərləndirilə bilər. Bu dövrdə fəhlə sinfinin həyat şəraitinin pisləşməsi, maarifçi ideallarıın - məsələn rasional düşüncə və universal hüquqlar vasitəsilə sosial problemlərin həll ediləbiləcəyinə inamın qeyri-real və nəticəsiz olduğunu üzə çıxarmışdır. Maarifçi mütəfəkkirlərin əsaslandırılmış arqumentlərlə fərdi hüquqları müdafiə etmək qabiliyyəti artıq əvvəlki kimi təsirli sayılmırdı. Ağlın və rasional yanaşmanın nüfuzdan düşdüyü bu şəraitdə, cəmiyyət üzvləri duyğulara və emosional həssaslığa daha çox ümid bağlamağa başlayırdılar. Belə düşünülürdü ki, hisslərin tərbiyəsi əxlaqi deqradasiyanı aradan qaldıra və münasibətlərdəki sərtliyi yumşalda bilər. Rasionalizmin yaratdığı soyuq yanaşmanın

əvəzində, sentimentalizm insani münasibətləri bərpa etməyə yönəlmiş alternativ etik platforma kimi çıxış edirdi.

Sentimentalizmin təsiri ilə oxucular təkcə emosional təəssüratlarla kifayətlənmirdilər; bu estetik yanaşma eyni zamanda sosial fəallığın stimullaşdırılmasına da xidmət edirdi. 1770-ci illərə qədər "həssaslıq" anlayışı İngiltərədə geniş yayılaraq quldarlığa qarşı mübarizə, uşaq əməyinin məhdudlaşdırılması, şəraitin yaxşılaşdırılması, yeni islahatlar və sənaye məktəblərinə qarşı tənqidi münasibət kimi müxtəlif sosial hərəkatlarla assosiasiya olunmağa başlamışdı. Bu mənada sentimentalizm təkcə estetik yanaşma deyil, həm də sənayeləşmə və kapitalizmin yaratdığı şəhər yoxsulluğu və əmək istismarına qarşı ictimai həssaslığın ifadəsi kimi çıxış edirdi. Sentimentalizm termini, müəllifin oxucuda emosional təsir - xüsusilə mərhəmət və rəğbət kimi hisslər oyatmaq məqsədilə istifadə etdiyi ədəbi üsulları ifadə edir. M. Abrams və C. Harfam "Ədəbi terminlər lüğətində sentimentalizmi "rəğbətin həddindən artıq ifadəsi və xeyirxahlıq hisslərinin şişirdilmiş təqdimatı" kimi xarakterizə edirlər [1, s.291].

A. Smit [12, s.145] sentimentalizmin əsas paradokslarından birini nəzəri cəhətdən belə əsaslandırırdı: "İnsan öz daxili təəssüratlarını yenidən yaşayaraq, yeni emosional təcrübələr yarada bilər və bu proses nəticəsində hisslərin mahiyyəti transformasiyaya uğrayır". Bu yanaşma sentimentalizmin fəlsəfi əsasını təşkil edir və hissin passiv deyil, dinamik və məhsuldar bir təcrübə olduğunu vurğulayır. A. Smit bu fikirlərini kütləvi mədəniyyətin ilkin mərhələlərinin formalaşdığı dövrdə irəli sürmüşdür. Bu kontekstdə, emosional kapitalın artımı, yəni hisslərin yaradıcı şəkildə yenidən "istehsalı" və bunun iqtisadi sahədəki nəticələri - sentimentalizmin sosial və mədəni təsirini gücləndirmişdir. Əxlaqi mühakimələrdə "doğru hiss" anlayışı artıq Müqəddəs Kitab və ya digər xarici normativ qaydalara görə deyil, şəxsi duyğuların və təxəyyülün verdiyi ölçülərlə qiymətləndirilirdi.

## 2. Robert Börnsün poeziyasının özünəməxsusluğu

Maarifçilik dövründə din cəmiyyət həyatında hələ də mühüm rol oynasa da, fərdin mənəvi inkişafı və şəxsiyyətin öz varlığını dərk etməsi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdı. "Əxlaqi davranış insanın ağlından, yoxsa duyğularından qaynaqlanır?" kimi fəlsəfi suallar irəli sürüldüyü bu dövrdə Ledi Bredşeyin "sentimental" anlayışa dair qeydləri dövrün fəlsəfi diskursuna ədəbi cavab nümunəsi kimi qiymətləndirilə bilər [6]. Onun ifadələri yalnız sentimentalizm etiketi ilə tanınan dövrün bəzi sosial refleksiyalarının dəbdə olan mahiyyətini deyil, eyni zamanda bu ideyaların ədəbiyyata təsirini və onların sentimental ədəbiyyat çərçivəsində bədii ifadəsini nümayiş etdirir.

XIX əsrin əvvəllərində İngilis ədəbiyyatında baş verən dəyişiklikləri qəfil və fərqli hadisə kimi deyil, əksinə, XVIII əsrin ortalarında başlamış həssaslıq dövrünün məntiqi davamı və tamamlanması kimi qiymətləndirmək daha doğrudur. Samuel Riçardsonun əsərlərində müşahidə olunan qotik üsluba və emosional yanaşmaya olan maraq, dövrün estetik və zövq

meyarlarında baş verən dəyişikliklərin ilkin göstəriciləri hesab edilə bilər. Artıq bu mərhələdə hislərin və duyğuların ifadəsi ədəbi norma kimi qəbul olunmağa başlanmışdı.

Bir çox şairlər neoklassik poeziyanın süni konvensiyalarını və sərt məntiqə əsaslanan qaydalarını tədricən rədd etməyə başladılar. Eyni zamanda, orta əsrlərə və həmin dövrdəki müəmmalı, bütpərəst motivlərə yönələn maraq yeni ədəbi ilham mənbələrinin axtarışı ilə əlaqələndirilə bilər. Bu kontekstdə Şimali Avropa ölkələri və Kelt mədəniyyətlərinə məxsus mifoloji və folklor ənənələrinə olan maraq da diqqətəlayiqdir. Ədəbi zövqlərdəki dəyişimin bariz nümunələrindən biri Robert Börnsün yaradıcılığıdır: onun Ayrşir dialektində və şifahi xalq ədəbiyyatı ənənəsinə uyğun yazılmış şeirləri xüsusilə seçilir. R. Börnsün poeziyası mövcud ədəbi normalardan bir qədər fərqlənsə də, onun əsərləri qəbul olunmuş dil və üslub standartlarına meydan oxuyaraq xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında körpü rolunu oynayırdı. Onun şeirlərində Şotlandiya kənd həyatının realizmi ilə yanaşı, insan təbiətinə dair ümumbəşəri müşahidələr ön plana çıxır. O, yazılarında yerli dialektlərdən, xalq deyimlərindən və folklor elementlərindən ustalıqla istifadə edərək, həm xalqın səsinə çevrilmiş, həm də bu dilin poetik imkanlarını genişləndirmişdir. Şairin yaradıcılığında sentimentalizm və realizm elementləri vəhdət təşkil edir, sevgi, təbiət, insan ləyaqəti və sosial bərabərlik kimi anlayışlar isə əsas leytmotivlərə çevrilir. Börns xüsusilə kənd əməkçilərinin gündəlik həyatını və onların mənəvi dünyasını təsvir etməklə sosial-iqtisadi ziddiyyətləri incə şəkildə ortaya qoyur. O, feodalizmin ədalətsizliyini, sinfi ayrı-seçkiliyi və cəmiyyətin ikili standartlarını bədii vasitələrlə tənqid edir. Şairin humanist baxışları Fransız İnqilabı ideyalarına olan rəğbəti ilə üst-üstə düşür və bu, onun bəzən siyasi müstəvidə də cəsarətli mövqe sərgiləməsinə səbəb olmuşdur.

R. Bentmen qeyd edirdi ki, “R. Börns özünü Britaniya ənənəsinin bir hissəsi hesab edirdi. O, Qoldsmiti özünün “sevimli şairi” adlandırırdı... O, ən çox (İncildən sonra) Şekspir, Tomson, Pop, Milton, Addison, Bleyer, Qrey, Şenston və Qoldsmitdən sitat gətirirdi. Görünür, o, öz əsrinin bir sıra İngilis şairləri ilə tanış idi və ədəbi fəaliyyətinin istiqamətini müəyyənləşdirərkən onlara müraciət etmişdi” [4, s.210-211].

R. Börns mütərəqqi düşüncəyə malik, azadlıq və bərabərlik ideallarını müdafiə edən, köləliyə qarşı prinsipial mövqe sərgiləyən şəxsiyyətlərdən idi. Onun poeziyası preromantizmin estetikası və ideyaları ilə bağlı olsa da, bununla məhdudlaşmır, şeirlərində sentimentalizmin təsiri aydın şəkildə hiss olunmaqla bərabər romantizm dövrünə xas xarakterik cizgilər müşahidə edilir. Ümumilikdə, şairin poeziyası maarifçilik dövrünün realizm prinsiplərini xalq yaradıcılığı və folklor ənənələri ilə üzvi surətdə birləşdirməklə fərqlənir.

Robert Börnsün yaradıcılığı XVIII əsrin sonlarında ingilis ədəbiyyatında mövcud olan melanxolik və pessimist əhval-ruhiyyəli poetik ənənələrdən öz nikbin ruhu və həyatsevərliyi ilə fərqlənir. Yaradıcılığında insanın gündəlik həyat tərzinə, xalq ruhuna və xoş ovqata əsaslanan şeirlərə üstünlük verən R. Börns kübar burjua cəmiyyətinin riyakarlığını və zahiri əxlaq meyarlarını qətiyyətlə rədd edir, həyat hadisələrinə sıravi insanın səmimi və təbii baxışı ilə yanaşır.

O, dövrünün aparıcı ədəbi cərəyanlarına bilavasitə daxil olmasa da, poetik dünyagörüşü və ideya-estetik axtarışları bu cərəyanların prinsiplərindən heç də yan keçmir. Əksinə, şairin

yaradıcılığı həm demokratik maarifçilik ideyalarının daşıyıcıları, həm də romantik ədəbiyyatın nümayəndələri tərəfindən özlərinə yaxın hesab edilmişdir.

Robert Börnsün poetikasının aparıcı mövzularından biri məhəbbətdir. Onun lirikasında sevgi duyğuları yalnız zahiri təsvirlərlə deyil, eyni zamanda daxili psixoloji təcrübələrin incə təhlili ilə ifadə olunur. Bu mövzunu müxtəlif şeirlərində fərqli formalarda işləyən şairin maraqlı şeirlərindən biri də "Meri Morison"dur. Şeir gənclik illərində müəllifin diqqətini çəkmiş bir qadına həsr olunsa da, burada təqdim olunan obraz konkret real şəxsiyyət kimi deyil, daha çox ideallaşdırılmış və ümumiləşdirilmiş bir fiqur - kollektiv obraz kimi qəbul oluna bilər. Şeirdə "Meri Morison" adı nominal xarakter daşıyır və metaforik səciyyələndirmə funksiyası yerinə yetirir. Bu baxımdan, demək olar ki, Meri obrazı real bir şəxsin deyil, Börnsün ideal qadın anlayışının poetik ifadəsidir. Digər şeirlərində də bu ad sevgi obyekti olaraq təkrarlanır və müəllifin lirikasında arzulanan sevgilinin simvoluna çevrilir. Beləliklə, Meri adı Börnsün sevgi lirikasında həm ünvan, həm də poetik obraz funksiyasını daşıyan mərkəzi metafor kimi çıxış edir.

Sevgi ilə təbiət arasında assosiativ paralellər aparan və bəzi poetik nümunələrində bu iki anlayışı bir-biri ilə əlaqələndirən Robert Börnsün yaradıcılığında "sevgi" mövzusu, ümumən, müsbət semantik çalarlarda təqdim olunur; o, məhəbbəti melodik ahəng, təbiət gözəllikləri, saflıq və zəriflik kimi obrazlarla əlaqələndirir. Xüsusilə "Qırmızı, qırmızı qızılgül" adlı şeirində müəllif sevgi duyğusunu həyat anlayışı ilə bir müstəviyə çıxarır, sevgi anlarını isə həyatın axıcı və fanilik xüsusiyyəti ilə assosiasiya edərək, onları həyatın "qumu" kimi təsəvvür edir:

*Till a' the seas gang dry, my Dear,*
*And the rocks melt wi' the sun:*
*I will love thee still, my Dear,*
*While the sands o' life shall run* [7].

*Necə ki dənizlər qurumayıbdır,*
*Gündən əriməyib mərmər qayalar,*
*Səni sevəcəyəm, mənim əzizim,*
*Neçə ki, neçə ki canımda can var* [9, s.72].

Məhəbbətdən bəhs edən digər şeirdə müəllifin məcazi-estetik funksiya daşıyan metaforalardan istifadə edərək sevgilisini necə təsvir etdiyini görmək olar. "Ey Malli məzlum, Malli şirin" şeiri bizə lirik qəhrəmanın yolda rastlaşdığı sadə bir qız haqqında təsəvvür yaradır:

*"Her yellow hair, beyond compare,*
*Comes trinkling (trickling) down her swan-like neck…"* [8].

*"Onun müqayisə olunmaz sarı saçları,*
*Qu quşu boynundan süzülərək (damılaraq) gəlir..."* (tərcümə - İ. Cəfərova).

Şair şeirdə sinəsinə rəvan düşən saçları olan sevimli qız obrazını yaradır. Qızın obrazı müəllifin işlətdiyi metafora vasitəsilə təqdim olunduğu şeirdə R. Börns yoxsulluğu, eyni zamanda gözəlliyi təsvir edir. Müəllifin gözəl paltarlar geyinib dəbdəbəli yaşamaq istədiyi bu zavallı qıza yazığı gəlir.

Şairin bəzi şeirlərində isə məhəbbət ayrılıqla əlaqələndirilir. Onun poeziyasında bu hissin kədərli ifadəsi mövcuddur.

Həmçinin, dostluq mövzusu da Robert Börnsün şeir və balladalarında mühüm yer tutur və onun poetik irsində əsas tematik xətlərdən biri kimi çıxış edir. Şairin yaradıcılığında dostluq, çox zaman məhəbbətdən üstün tutulur. Bu yanaşma xüsusilə "Dostluq ruhunda sevgi" şeirində öz əksini tapır. Burada lirik qəhrəman sevgi əvəzinə dostluğu üstün tutur, çünki dostluq onun üçün daha cazibədar və etibarlı münasibəti təmsil edir. Eyni münasibət "Aldanmış sevgi, zövq" adlı şeirdə də müşahidə olunur; burada müəllif qadınla münasibətlərə və romantik sevgiyə skeptik yanaşır, həyatdakı həqiqi təsəllini isə bir qədəh şərabda və dostluğun gətirdiyi sülhdə görür.

R. Börnsün poeziyası rəngarəng metaforalarla zəngindir, bu da müəllifin mürəkkəb konstruksiyalardan qaçaraq öz fikirlərini daha sadə üsullarla ifadə etməyə çalışması ilə bağlıdır. Onun poeziyası, əsasən, musiqi əsərləri yaratmaq üçün yazıldığından şeirləri musiqiyə mükəmməl uyğunlaşır. Eyni zamanda, şairin şeirləri çoxlu obrazlar, müqayisələr, assosiasiyalar yaradır və onun poeziyasının unikallığını vurğulayırlar.

### 3. R. Börnsün poeziyasında sentimentalizmin izləri

R. Börns açıq şəkildə bildirir ki, H. Makkenzi və L. Stern kimi "sentimental üslublu" müəlliflər yaradıcılığının ilkin mərhələsində ona təsir etmişdir [4, s.17]. Şairin əsərlərinin kompozisiyasında etdiyi bir sıra üslub və tematik seçimlər L. Stern və H. Makkenzinin romanlarını xatırladır, "Şən dilənçilər" şeirində cəmiyyətdən kənarlaşdırılmış insanlara rəğbətin nə qədər böyük əhəmiyyət kəsb etdiyini vurğulaması da həmin yazıçıların sentimental qəhrəmanlarından qaynaqlandığını deməyə əsas verir.

"R. Börns şotlandların Şotlandiya uğrunda çarpışdığı davamlı azadlığının bu ölkənin boy-buxununa biçildiyini, azadlığın şotlandların əsas həyat məramı və idealı olduğunu yaxşı bilirdi və bunu "Şən dilənçilər" şeirində bu cür ifadə edirdi":

*Saraylar biçilib iblis əyninə,*
*Kilsələr tikilib keşiş xeyrinə* [9, s.63].

Şairin poetik inkişafını və onun sentimentalizm ənənəsi ilə çoxşaxəli əlaqələrini izləmiş, bu münasibətlərin şairin yaradıcılığındakı ideya-estetik dinamikasını necə formalaşdırdığını geniş şəkildə təhlil etmiş Kerol Makquirkin "Robert Börns və Sentimental Era" [10] adlı tədqiqatında Robert Börnsü həm XVIII əsr sentimental ədəbiyyat ənənəsi daxilində, həm də bu ənənə ilə dialoq şəklində inkişaf edən orijinal poetik trayektoriyada qiymətləndirir. Tədqiqatçının fikrincə, R. Börnsün ideya-estetik dünyagörüşü və poetik tematikası onun yaradıcılığının müxtəlif mərhələlərində sentimentalizmin təsiri ilə zənginləşir. Bu təsir, özünü şairin "Siçana", "Bitə" və "Dağ çobanyastığına" kimi poetik ünvanlamalarla yazılmış erkən

şeirlərindən başlayaraq, Edinburq dövründə formalaşmış "sentimental qəhrəman" obrazında və nəhayət, Şotlandiya xalq mahnılarında ifadə olunan dərin emosional üslubunda aydın şəkildə göstərir.

Robert Börnsün sentimentalizmi insan və təbiət arasındakı əlaqələrə dərin empatiya ilə yanaşması ilə seçilir və bu yanaşma ən güclü şəkildə onun "Siçana" şeirində özünü göstərir. Şeir, təbii mühitə və canlılara qarşı insanın təsadüfi və qeyri-iradi müdaxiləsinin əxlaqi nəticələrini araşdırır. Şeirdə, şair tarlasını şumlayarkən təsadüfən yuvasını dağıtdığı bir siçandan üzr istəyir, bu isə oxucunu təbiətə qarşı insanın mümkün olan zərərini və bəşəriyyətin təbiətə təsirini düşünməyə sövq edir. Börns, bu kiçik məxluqun yaşadığı əzabı əhəmiyyətsiz bir hadisə kimi deyil, bütün canlıların ortaq zəifliyini göstərən bir metafora kimi təqdim edir. Şairin yazdığı "İnsanın hökmranlığı təbiətin birliyini pozdu" misraları təbiətə qarşı etik bir qayğının formalaşması və təbii mühitin pozulmasının bəşəriyyətin kollektiv məsuliyyəti olduğunu göstərir.

Siçan burada yalnız simvol deyil, həm də bəşəriyyətin çətinlikləri ilə rezonans doğuran canlı bir varlıqdır. Börns şeirdə əzabların universallığını vurğulayaraq oxucunu fərqliliklərdən asılı olmayaraq mərhəmət göstərməyə çağırır. Bu yanaşma sentimentalizmin təməl xüsusiyyətlərindən biridir, çünki o, oxucunu növlər, siniflər və şəraitlərarası sərhədləri aşaraq insanlıq və təbiət əlaqəsi hissi ilə bağlı düşünməyə dəvət edir.

Eynilə, "Dağ çobanyastığı" şeirində Börns, ayaqlar altında tapdalanan çiçəyin taleyindən kədərlənir və onu həyatın sərt qüvvələri tərəfindən məhv edilmiş məsumluğun simvolu kimi təqdim edir. "Siçan" şeirində olduğu kimi, burada da çobanyastığı emosional təfəkkür vasitəsinə çevrilir - itirilmiş sevgi, gənclik və ölümün qaçılmazlığına dair dərin düşüncələri ifadə edir, hiss və əxlaqın bir-birinə möhkəm bağlı olduğu sentimental idealı vurğulayır.

Dövrün maarifçi mütəfəkkirləri şəxsiyyəti əxlaqın təbiəti və xislətindəki yaxşılıq ilə əlaqələndirirdilər. Elmi tərəqqidən doğulan maarifçilər insanları dindar kütlə kimi deyil, fərd kimi ön plana çıxaran skeptisizm səviyyəsini qəbul edirdilər. Sentimental ədəbiyyatda isə fəzilət çox zaman təbii və instinktiv bir keyfiyyət kimi təqdim olunur. R. Börns isə xüsusilə kəndli və ya fəhlə sinfinə mənsub obrazların ifadə etdiyi sadə və səmimi əxlaq normalarını yüksək qiymətləndirirdi. "Kotterin şənbə axşamı" şeirində şair Şotland kəndli ailəsinin ləyaqətini və mənəvi gücünü təsvir edir, dərin emosional rezonansla daxili fəzilət və dindarlığı vurğulayır.

XVIII əsr ədəbiyyatı kontekstində R. Börnsün sentimentalizmi onu L. Stern və H. Makkenzi kimi ədəbi simalarla əlaqələndirsə də, onun əsərləri, Şotlandiya mədəniyyəti və xalq dilinə dərin bağlılığı ilə seçilir. R. Börns sentimentalizmi şəhər elitasının malikanələrindən çıxarıb, Ayrşirin tarlalarına və evlərinə gətirmişdi. Onun poeziyası birbaşa təcrübəyə və xalqın səsinə əsaslanır və nəticədə, R. Börns dərin hiss və əxlaqi idrakın yalnız savadlı və imtiyazlı təbəqələrə məxsus olmadığını, əksinə, hər kəsin mülkiyyəti olduğunu göstərir.

R. Börns poetikasında ənənə ilə novatorluq arasında yaradıcı sintez quraraq, həm klassik, həm də xalq ədəbiyyatının təsir dairəsini genişləndirmiş, eyni zamanda ədəbi dili demokratikləşdirmə istiqamətində mühüm addımlar atmışdır. Onun irsi təkcə Şotlandiya deyil, bütün dünya ədəbiyyatı üçün örnək təşkil edir və çağdaş ədəbi-nəzəri diskurslarda hələ də aktuallığını qoruyur. Börnsün poetik irsi milli mədəniyyətin yaddaşı olmaqla yanaşı, həm də bəşəri dəyərlərin ifadəçisi kimi dəyərləndirilir. Onun yaradıcılığı, nəinki öz dövrü üçün, həm də müasir dövr üçün mühüm ictimai və ədəbi problemləri ehtiva edir.

**Nəticə.** R. Börnsün poetik irsi XVIII əsr ingilis poeziyasının inkişaf mərhələsini tamamlayan və bu ədəbi ənənəni XIX əsrin bədii düşüncə tərzi ilə birləşdirən mühüm keçid həlqəsi olmuşdur. Şairin poeziyasının təhlili, həmçinin şeirlərində əhatə olunan mövzu dairəsinin genişliyi əsasında belə qənaətə gəlmək mümkündür ki, müəllif poetik dili yüksək dərəcədə metaforik strukturlarla zənginləşdirmişdir. Robert Börnsün əsərlərindəki sentimentalizm yalnız üslubi və ya tematik bir seçim deyil, həm də onun dünyagörüşünün təzahürüdür. Onun poeziyası, hisslərin dəyişdirici gücünə, empatiyanın mənəvi dəyərinə və həyatın bütün sahələrində ləyaqətin əsas roluna inamı əks etdirir.

## Ədəbiyyat


1. Abrams M.H., Harpham G.G. (2013), A Glossary of Literary Terms. Cengage Learning, 446. https://mseffie.com/assignments/genre/Abrams%20(11th).pdf
2. Bentman R. (1972), Robert Burns's declining fame. Studies in Romanticism, Vol.11, No.3, 207-224.
3. Broadhead A. (2014), The Language of Robert Burns: Style, Ideology and Identity. Lewisburg: Bucknell University Press.
4. Burns R. Letter to John Murdoch, January 5th 1783, in G. Ross Roy, The Letters of Robert Burns, 2nd Edition [henceforth Letters], 2 vols. (Oxford: Oxford University Press, 1985), Vol. 1, letter 13 [henceforth in the format 1:13.
5. Burns R., Kinsley J. (1968), The Poems and Songs of Robert Burns, Vol.3. Oxford: Clarendon.
6. Day W.G. (2018), Essay on a sentimental journey. https://www.laurencesternetrust.org.uk/sterne/a-sentimental-journey/essay-by-w-g-day-on-a-sentimental-journey/
7. http://www.eng-poetry.ru/PoemE.php?PoemId=979
8. https://www.bbc.co.uk/arts/robertburns/works/o_mallys_meek_mallys_sweet/
9. Xəlilli Ş., Əliyeva S. (2019), Robert Börns: Şeir, Nəğmə Körpüsü və Sözlə Hörülmüş Dünya. Dərs vəsaiti. Bakı, 376. http://web2.anl.az:81/read/page.php?bibid=674733&pno=38
10. McGuirk C. (1985), Robert Burns and the Sentimental Era. University of Georgia Press, 193. https://www.jstor.org/stable/3199770?seq=1
11. Sampson D. (1985), Robert Burns: The revival of Scottish literature? The Modern Language Review, Vol.80, No.1, 16-38.

12. Smith A. (2011), The Theory of Moral Sentiments and on the Origins of Languages. Gutenberg Publishers, 358. https://oll.libertyfund.org/titles/smith-the-theory-of-moral-sentiments-and-on-the-origins-of-languages-stewart-ed
13. Weston J.C. (1960), An example of Robert Burns' contribution to the Scottish vernacular tradition. Studies in Philology, Vol.57, No.4, 634-647.
14. Wetmore A. (2013), Men of Feeling in Eighteenth-Century Literature: Touching Fiction. Palgrave MacMillan.
15. Zhatkin D. (2018), Russian literary-critical reception of Burns at turning of the XIX-XX centuries. Opción, Vol.34, No.(85-2), 277-300.